**İTKILƏRIMIZ. НАШИ ПОТЕРИ. OUR LOSSES**

**Etibar Talıblı**
**Bakı Dövlət Universiteti(Azərbaycan)**

## NOVRUZU GÖZLƏMƏDİ...
## (Professor Azad Nəbiyevin həyat və yaradıcılıq yoluna müxtəsər baxış)

Azərbaycan elmi və pedaqoji ictimaiyyətinə ağır itki üz vermişdir. Milli folklorşünaslığımızın ən görkəmli nümayəndələrindən biri, yaşına görə deyil, səmərəli elmi yaradıcılığı və təşkilatçılığı ilə nüfuzlu mövqe qazanmış böyük alim, şəxsiyyət, Bakı Dövlət Universiteti Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Azad Nəbiyev qəflətən vəfat etmişdir.

Müəllimimiz, həmkarımız, dostumuz, həmişə məsləhət və tövsiyələrinə ehtiyac hiss etdiyimiz Azad müəllim əsl ziyalı və vətəndaş ömrü yaşadı. Hələ orta məktəb illərindən bədii yaradıcılığa meyil edən – şeir yazan, musiqi bəstələyən A.Nəbiyev bütün ömrünü əzmkarlıqla, aramsız şəkildə yaradıcı fəaliyyətə həsr etdi. Vəfat etdiyi gün rəhbərliyi ilə yenicə çapdan çıxmış son kitabının sevincini isti-isti kafedranın müəllimləri ilə bölüşmüşdü. Qarşıdakı planlarından, layihələrindən söz açmışdı. Amma nə biləsən ki...

Azad müəllimin həyat yoluna nəzər salanda məlum bir həqiqəti bir daha təsdiq edirsən ki, fikir və düşüncə adamlarının həyatı yalnız olum və ölüm arasında qət olunmuş məsafə ilə deyil, onun əsərlərinin, fikirlərinin, əməllərinin, haqqındakı xatirələrin yaşadığı **Zamanla** ölçülür. **Əbədiyyət qazanmaq** ifadəsi də bu düşüncə nəticəsində yaranıb. Bu mənada Azad müəllim xoşbəxt insandır, ölümə baş əyməyən insandır. S.Vurğun demişkən, “ölüm sevinməsin qoy”...

Azad Mövlud oğlu Nəbiyev 1945-ci ilin baharında vətənimizin dilbər guşələrindən olan Quba rayonunun II Nügədi kəndində ziyalı ailəsində anadan olmuşdur. Doğma kəndində orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra – 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) filologiya fakültəsinə daxil olmuş, 1967-ci ildə həmin fakültəni jurnalistika ixtisası üzrə fərqlənmə diplomu ilə başa vurmuşdur.

Əmək fəaliyyətinə 1967-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında siyasi ədəbiyyat üzrə böyük redaktor kimi başlamış, 1972-ci ildən “Gənclik” nəşriyyatında şöbə müdiri işləmişdir. İşləməklə bərabər, universitetin aspiranturasında qiyabi təhsil almışdır. Xoşbəxtlikdən elmi rəhbəri tanınmış folklorşünas professor M.H.Təhmasib olmuşdur. 1972-ci ildə “Koroğlu” dastanında Koroğlu surəti (Azərbaycan-özbək materialları əsasında)” movzusunda dissertasiya işini müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi almışdır. Onun namizədlik işini hələ qadağaların götürülmədiyi dövrdə folklorumuzu ümumtürk kontekstində öyrənmək cəhdi kimi də qiymətləndirmək olar.

A.Nəbiyev 1976-cı ildən universitetdə müəllimlik fəaliyyətinə başlamışdır. 1981-ci ildə “Azərbaycan-özbək folklorunun tipologiyası və qarşılıqlı əlaqəsi” mövzusunda dissertasiya işini Tiflisdə o zamankı SSRİ-nin çox tanınmış alimlərinin iştirakı ilə uğurla müdafiə etmiş və filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. 1982-ci ildə isə professsor adına layiq görülmüşdür.

1989-cu ildə onun təşəbbüsü ilə Bakı Dövlət Universitetində Folklor kafedrası açılmış, həmin vaxtdan ömrünün sonunadək kafedranın müdiri vəzifəsində çalışmışdır.

Professor A.Nəbiyevin yaradıcılığı çoxşaxəli və qibtəediləcək dərəcədə məhsuldar olmuşdur. Folklorşünaslıq, ədəbi əlaqələr, ədəbi tənqid, tərcüməçilik, publisistika, ilk qələm təcrübələrində olsa da, poeziya bu geniş fəaliyyətin tərkib hissələridir. Kiçik bir qəzet məqaləsi də bunların hər birində onun gördükləri işlərdən danışmaq, onları qiymətləndirmək sadəcə mümkün deyildir.

Şübhəsiz, prof. A.Nəbiyevin folklorşünaslıq irsi həm ayrı-ayrı sahələr, problemlər üzrə, həm də ümumilikdə fundamental tədqiqatların obyekti olacaq, böyük alimin Azərbaycanın elm və mədəniyyəti tarixində tutduğu yer, inkişafında oynadığı rol özünün layiqli qiymətini alacaqdır. Bu yazı onun həyat və yaradıcılıq yoluna sadəcə olaraq, müxtəsər baxış cəhdidir.

A.Nəbiyev hər şeydən öncə folklorşünas alim idi. O, həm folklor toplayıcısı, tərtibçisi, naşiri, həm folklor tarixçisi, nəzəriyyəçisi, həm folkloru universitet auditoriyalarında tədris edən pedaqoq, həm də böyük folklor təbliğatçısı, təəssübkeşi idi. Folkloru sevən və sevdirən bir insan idi. Folkloru milli mədəniyyətimizin əsası, ana qaynağı, milli tarixi yaddaşın ən böyük daşıyıcısı olan bir xəzinə, sərvət hesab edirdi. Mübaliğəsiz demək olar ki, Azad müəllim folklorşünaslıqda məktəb yaratmış və yaradıcılığı ilə mərhələ təşkil edən bir alim olmuşdur.

İlk toplama işini – "Koroğlu" dastanının yeni bir qolunu hələ tələbə olarkən universitetin "Elmi əsərləri"ndə dərc etdirmişdi. Müəllimlərinin etimadı onun bu işə olan marağını professional bir fəaliyyətə çevirmişdir. Ən müxtəlif janrlara aid topladığı mətnlər onun "Nəğmələr, alqışlar, inanclar" (1986), "Azərbaycan dastanları" (1977), "Novruz" (1989), "Novruz bayramı" (1990), "Sehrli sünbüllər" (1990), "İlaxır çərşənbələr" (1992), "Alqışlar, adətlər, nəğmələr" (1992), "Koroğlu" (2003), rus dilində "Azərbaycanın mif, əfsanə və nağılları" (1988), "Azərbaycan folkloru" (1992), Türkiyə türkcəsində "Azərbaycan ədəbiyyatı antologiyası". Folklor cildi (Ankara, 1992) və başqa dəyərli kitablarında nəşr edilmişdir. Vaxtilə diqqətdən kənar qalmış kiçik janrların, mərasim folklorunun nəşrindən tutmuş "Koroğlu"nun Dərbənd variantınadək ən müxtəlif folklor mətnləri onun sayəsində qeydə alınaraq itib-batmaqdan, unudulmaqdan qorunmuşdur.

A.Nəbiyev folklorşünaslığın ən müxtəlif sahələri və problemləri ilə məşğul olmuş, ciddi elmi uğurlar qazanmış nəzəriyyəçi alim kimi təkcə respublikamızda deyil, onun sınırlarından kənarda da kifayət qədər tanınmışdır. O, folklorun aktual məsələlərini əhatə edən əllidən artıq monoqrafiya, dərs vəsaiti və özünün yazıya aldığı folklor materiallarından ibarət topluların, 350-dən artıq elmi məqalənin müəllifidir.

A.Nəniyevin çoxşaxəli elmi marağında eposşünaslıq mühüm yer tutur. Dastanlarımızı ümumtürk folkloru kontekstində öyrənməsi ilə, müqayisəli-tipoloji araşdırmalara əsaslanması ilə bu sahədə gördüyü işlər həm də türk xalqları arasında folklor əlaqələrinin tədqiqinə töhfə vermişdir. Yazdığı hər iki dissertasiya işi ilə bərabər, "Qəhrəmanlıq səhifələri" (1975), "Azərbaycan-özbək folklor əlaqələri" (1978), (rus dilində nəşri – 1986), prof. X.Koroğlu ilə birlikdə yazdığı "Azərbaycan qəhrəmanlıq eposu" (rus dilində, 1996) kitabları milli eposşünaslığımızın dəyərli əsərləridir. "Koroğlu", "Qaçaq Nəbi", "Qatır Məmməd" kimi dastanları toplayıb nəşr etdirməsini, həmin nəşrlərə yazdığı müqəddimə və şərhləri də qeyd etmək olar.

Görkəmli alimin irsində mərasim folkloru, milli bayramlar, xüsusilə Novruz bayramı, mifologiya, xalq dram və oyunları, aşıq sənəti kimi sahələrin tədqiqi xüsusi yer tutur. Bu baxımdan onun"El nəğmələri, xalq oyunları" (1988), "Azərbaycan uşaq folkloru" (2000), "Azərbaycan aşıq məktəbləri (2004) və s. kitabları maraq kəsb edir.

“Azərbaycan xalq ədəbiyyatı” adlı irihəcmli, iki cildlik dərsliyi (I c. 2002, 2009; II c. 2006) alimin ardıcıl tədqiqatlarının ümumiləşdirilmiş ifadəsi kimi qiymətləndirilə bilər. Bu, təkcə dərslik kimi deyil, eyni zamanda xalq ədəbiyyatımızın tarixi inkişafını mərhələlər üzrə əks edən, zəngin folklor janrlarımızı sistemləşdirən, hər bir folklor tədqiqatçısının istifadə etdiyi fundamental bir əsərdir. AMEA-nın nəşr etdirdiyi 6 cildlik “Azərbaycan ədəbiyyatı tarixi”nin xalq ədəbiyyatına həsr olunmuş I cildinin (2004) əsas müəlliflərindən olması da A.Nəbiyevin elmi bioqrafiyasında qeyd olunmalı mühüm hadisələrdən biridir.

Yaradıcılığının son dövründə folklorun sırf nəzəri problemləri üzərində intensiv çalışırdı. Nəzəri axtarışlarının nəticəsi olaraq, 2006-cı ildə oxşar mədəniyyətlərin xalqların gen birliyi ilə bağlı yarandığını təsdiqləyən nəzəri fikirləri maraqla qarşılanmışdır. Bu məsələ ilə əlaqədar araşdırmaları tam halda “Oxşar dəyərlərin gen qaynağı – genealoji nəzəriyyə” (2009) kitabında nəşr edilmişdir. Daha sonra isə “Folklor yaradıcılığında fasiləsiz transfer” adlı nəzəri təlim yaratmış və fikirlərini “Folklorda fasiləsiz transfer və yuxu paradiqmaları” (2011) kitabında əks etdirmişdir.

Azad müəllim mənəvi mədəniyyətimizin həmişə qoruyucusu, təbliğatçısı olmuşdur. Azərbaycan muğamının, aşıq sənətinin və Novruzun YUNESKO-nun qorunan qeyri-maddı mədəni irs siyahısına salınmasına nə qədər sevindiyinin canlı şahidiyik. Bu sahədə öz əsərləri ilə konkret iş görər, görülməli işlər barədə ən mötəbər kürsülərdə fikirlərini səsləndirərdi. Onun rəhbərliyi altında həyatının son günlərində çap olunan “Azərbaycanda Novruz” kitabı qeyri-maddi mədəni irsimizin təbliği işinə layiqli töhfədir.

Professor A.M.Nəbiyev 2000-ci ildə “Azərbaycan Respublikasının əməkdar müəllimi” fəxri adına layiq görülmüş, 2001-ci ildə ədəbiyyatşünaslıq sahəsindəki böyük xidmətlərinə görə AMEA-nın müxbir üzvü seçilmişdir. Qeyd etmək yerinə düşər ki, A.Nəbiyev AMEA-nın mövcudluğu ərzində ora seçilmiş yeganə folklorçudur. Bu fakt onun Azərbaycan folklorşünaslığında tutduğu mövqeyi aydın əks etdirir.

2005-ci ildə anadan olmasının 60 illiyi ilə əlaqədar, AMEA-nın və BDU nun Fəxri Fərmanları, Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif edilmişdir. O, eyni zamanda bir sıra Beynəlxalq və sahə Akademiyalarının üzvü olmuşdur. Müxtəlif illərdə bir sıra Müdafiə və Dissertasiya Şuralarının, Elmi-Metodik Şuraların, nüfuzlu qəzet və jurnalların redaksiya heyətinin üzvü olmuşdur. 2001-2005-cu illərdə Ali Attestasiya Komissiyasının filologiya elmləri üzrə eksperti və Ekspert Şurasının sədrinin müavini olmuşdur. 2009-cu ildən isə AMEA-nın folklorşünaslıq üzrə koordinasiya şurasının sədri kimi çalışmışdır. 30-dan artıq dissertant və aspirantın elmi rəhbəri, 4 doktorantın elmi məsləhətçisi, onlarla doktorluq və namizədlik dissertasiyalarının rəsmi opponenti olmuşdur. A.Nəbiyev 1992-ci ildən nəşr edilən “Folklorşünaslıq məsələləri” elmi-nəzəri jurnalının təsisçisi və redaktoru idi.

O, gənc yaşlarından Azərbaycan Jurnalistlər Birliyinin, Yazıçılar Birliyinin üzvü olmuş, “Qızıl qələm” mükafatına layiq görülmüşdür.

Prof. A.Nəbiyev ölkənin ictimai-siyasi həyatında bir vətəndaş və ziyalı olaraq fəal iştirak etmiş, azərbaycançılıq, milli dövlətçilk, demokratiya məsələləri ilə bağlı dərin məzmunlu publisistik yazıların müəllifi kimi tanınmışdır. Onun elmi-publisitik üslubda yazdığı “Milli təəssübkeşlik, yoxsa erməni saxtakarlığı” (2003) kitabı mənəvi mədəniyyətimizi öz adlarına çıxan bədnam qonşularımıza azərbaycanlı ziyalının, vətəndaşın sanballı cavabı sayıla bilər.

Azad müəllim bir əsrin baharında doğuldu, o biri əsrin kiçik çilləsində, sazağında dünyadan köçdü... Həmişə böyük şövqlə qarşıladığı Növruzu gözləmədi... Ölümü ilə onu sevənlərin qəlbinə xəzan gətirdi... Təskinliyimiz ondadır ki, Azad müəllimin əziz xatirəsi onun oxunacaq əsərlərində, inkişaf etdiriləcək elmi fikirlərində, həmkarlarının, tələbələrinin, onu yaxından tanıyanların yaddaşlarında yaşayacaqdır.

**Açar sözlər: Azad Nəbiyev, həyat və yaradıcılıq, qısa icmal, Novruz, folklor**

**Этибар Талыблы**
**Бакинский Государственный Университет(Азербайджан)**

## НЕ ДОЖДАЛСЯ НОВРУЗА…
## (Краткий обзор жизни и творческого пути профессора Азада Набиева)

### РЕЗЮМЕ

Эта статья посвящена жизни творческой биографии выдающегося ученого-фольклориста, учредителя и главного редактора журнала «Вопросы фольклористики» члена-корреспондента НАН Азербайджана, профессора, доктора филологических наук А.М.Набиева. А.М.Набиев создал свою школу в азербайджанской фольклористике и был одним из тех учёных, которые своим творчеством создали новый этап в науке. В статье его богатое всестороннее научное наследие комментируется по конкретным областям. Здесь высоко оценивается широкая деятельность как собирателя, составителя издателя фольклора, а также историка, теоретика и пропагандиста народного творчества. Особо отмечаются его творческие успехи, связанные с эпосоведением, обрядовым фольклором, ашугским творчеством, мифологией, теорией фольклора.

**Ключевые слова: Азад Набиев, жизнь и творчество, краткий обзор, Новруз, фольклор**

**Etibar Talibly**
**Baku State University(Azerbaijan)**

## HAS NOT WAITED OF NOWRUZ …
## (The short review of a life and a creative way of Professor Azad Nabiyev)

### SUMMARY

The article is devoted to a life and of the creative biography of A.Nabiyev, the outstanding scientist-specialist in folklore, the founder and the editor-in-chief of magazine «Questions of the Folkloristic» member-correspondent of the National Academy of Sciences of Azerbaijan, the professor, Doctor of Philology. A.M.Nabiyev have created the original school in Azerbaijani Folkloristic and was one of scientists who with its creativity is founded a new stage in a science. In the article is rich all-round scientific heritage is made comments on concrete areas. Here its wide activity as collector, the composer of the publisher of folklore, and also the historian, the theorist and the propagandist of national creativity is highly estimated. There are especially marked its creative successes connected with epos theory, by ceremonial folklore, ashug's creativity, mythology, the folklore theory.

**Keywords: Azad Nabiyev, a life and creativity, the short review, Novruz, folklore.**